GÜNÜN SİYASİ NƏBZİ






*Mayın 28-də Laçın səmasında üç bayraq yan-yana dalğalandı - Azərbaycan, Türkiyə və Pakistan bayraqları. Üç qardaş ölkənin liderləri Azərbaycanın yeni dövrünün ən möhtəşəm günündə, doğma torpaqda bir araya gələrək tarixə yeni bir səhifə əlavə etdilər. Üç qardaş ölkənin Zirvə görüşü ruhların birliyi, talelərin və ideallların kəsişməsi idi. Laçında keçirilən görüş bütün dünyaya aydın bir ismarış verdi ki, Azərbaycan, Türkiyə və Pakistan arasında qurulan dostluq körpüləri sarsılmazdır, bu ittifaq hər cür sınaqlardan keçmiş möhkəm təməllərə söykənir.*



# Ankara-Bakı-İslamabad üçbucağı:

# Dünənin, bugünün və sabahın strateji İttifaqı

Laçın azadlıq uğrunda mübarizənin və Azərbaycanın dirçəlişinin simvollarından biri olaraq seçilmişdi. Bu şəhərdə keçirilən Zirvə görüşü məhz bu aspektdə rəmzi mənaya malik idi. Prezident İlham Əliyevin çıxışı işğal yaralarının sağalması, milli birlik, həmrəylik və bölgədə yeni geosiyasi reallıqların yaradılması mövzusunda idi. Laçında üç qardaş ölkənin liderlərinin bir araya gəlməsi, Türkiyə ilə Pakistanın Azərbaycanın haqq mübarizəsində verdiyi siyasi və mənəvi dəstəyin təzahürü olmaqla yanaşı, regionda sülh və sabitliyin təməlini qoyan siyasi hadisə idi.

Üçtərəfli Zirvə təkcə keçmişə sədaqətin yox, gələcəyə olan inamın da göstəricisinə çevrildi. Laçında səslənən fikirlər regionda yaranmaqda olan yeni əməkdaşlıq formatlarına yol açan ciddi, aydın və qətiyyətli mesaj idi. Məlumdur ki, qardaş ölkələr arasında əlaqələr yüksək səviyyədədir, siyasi dialoq intensiv səciyyə daşıyır. Liderlər müntəzəm olaraq qarşılıqlı səfərlər edirlər və aktual müzakirələr aparırlar. Azərbaycan-Türkiyə münasibətləri çoxşaxəli səciyyə daşıyaraq həyatın bütün sahələrini əhatə edir. Eyni zamanda, iki qardaş ölkə arasında münasibətlərin hüquqi əsasları da getdikcə möhkəmləndirilir. Bu baxımdan Qars müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında 2021-ci il 15 iyun tarixində imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi müstəsna siyasi və tarixi əhəmiyyət daşıyır. Azərbaycan ilə Pakistan arasında münasibətlər artıq rəsmi çərçivələri çoxdan aşaraq, strateji dostluğa, sarsılmaz qardaşlığa çevrilib. Bu münasibətlər ildən-ilə dərinləşir, səfərlərlə, görüşlərlə, verilən mesajlarla möhkəmlənir. Son üç ildə Pakistanın Baş nazirinin ardıcıl səfərləri və 2024-cü ilin iyulunda Prezident İlham Əliyevin Pakistana dövlət səfəri bu doğmalığın təzahürüdür.

Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu il Laçında keçirilən üçtərəfli Zirvə görüşü tarixə yazılan rəmzi hadisə idi. Görüşün məhz Azərbaycanın Müstəqillik Günündə, illərlə erməni tapdağı altında inləyən, bu gün isə yenidən nəfəs alan Laçında keçirilməsi xalqımızın azadlıq iradəsinin, dövlətimizin əzm və qətiyyətinin parlaq ifadəsinə çevrildi. Bir vaxtlar sükuta bürünmüş Laçın bu gün həyatla döyünür, quruculuq sədaları ilə dirçəlir, beynəlxalq əhəmiyyətli görüşlərin, dövlət başçılarının addımladığı diplomatik mərkəzə çevrilir. Elə bu Qarabağın ürəyində Azərbaycan, Türkiyə və Pakistan liderlərinin görüşü ölkəmizin beynəlxalq nüfuzunun, diplomatik məharətinin və strateji baxışının təntənəli nümayişinə çevrildi.



Bu Zirvə görüşü Türkiyənin və Pakistanın Azərbaycanın ərazi bütövlüyünə sarsılmaz dəstəyinin bir daha təsdiqi oldu. Bayraqlar yan-yana dalğalanır, ürəklər birgə döyünürdü. Prezident İlham Əliyevin dediyi kimi, 2020-ci ildəki 44 günlük Vətən müharibəsinin ilk saatlarından etibarən Türkiyə və Pakistan Azərbaycanın yanında oldu. Bu, qardaşlığın susmayan səsi, vicdanın və ədalətin çağırışı idi. Azərbaycan da hər zaman bu iki qardaş ölkənin yanında olub. Bununla yanaşı, qlobal geosiyasətdə də müsəlman ölkələrinin mövqeyinin gücləndirilməsi naminə Azərbaycan-Türkiyə-Pakistan qardaşlığının xüsusi rolu var. Üç dövlətin ortaq addımları beynəlxalq arenada daha effektiv mövqeyin təmin olunmasına, regional problemlərin birgə həllinə və sülhün qorunmasına xidmət edir. Enerji layihələri, nəqliyyat dəhlizləri və hərbi-texniki əməkdaşlıq bu məqsədlərin real ifadəsidir. Təsadüfi deyil ki, Laçında keçirilən Zirvədə ölkə başçımız vurğuladı ki, Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM), habelə D-8 kimi beynəlxalq platformalarda birgə səylərimizi daha da möhkəmləndirmək əzmindəyik. Həmçinin, ölkəmizin ötən il D-8-in 11-ci Zirvə görüşü zamanı yekdilliklə bu təşkilatın üzvü seçilməsi deyilənlərə əyani misaldır: "Ölkələrimiz və xalqlarımız birgə tarix, mədəniyyət və dəyərlər əsasında bir-birinə bağlıdır. Bir-birimizin uğurlarına sevinmişik, çətin günlərdə bir-birimizin yanında olmuşuq".

İnvestisiyalarla birgə inam da artır. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın artıq Türkiyə iqtisadiyyatına yatırdığı sərmayə 20 milyard dolları keçib. Pakistanla isə 2 milyard dollarlıq yeni iqtisadi əməkdaşlıq üçün qapılar geniş açılıb. Bu rəqəmlər inamın, qardaşlığın və birgə gələcəyin rəmzidir. Azərbaycan-Türkiyə arasında illik ticarət dövriyyəsinin 15 milyard dollara çatdırılması, Pakistanla birlikdə bu göstəricinin 17 milyard dollara yüksəldilməsi barədə planlar gündəmdədir. Regionda formalaşan bu yeni iqtisadi münasibət, sadəcə əməkdaşlıq platforması olmaqla yanaşı, həm də sülhə, sabitliyə və tərəqqiyə aparan strateji yol xəritəsidir.

Enerji sahəsində də üç qardaş ölkənin aktivliyi müşahidə olunur. Xüsusi vurğulanmalıdır ki, Azərbaycanla Türkiyənin əməkdaşlığı artıq regional sərhədləri aşaraq qlobal enerji siyasətinə təsir göstərir. TANAP və TAP kimi irimiqyaslı layihələr Avropanın enerji təhlükəsizliyində həlledici mövqeyə yüksəlib. Bu gün isə diqqət ənənəvi resurslardan daha çox alternativ enerji mənbələrinə yönəlir. Günəş, külək və yaşıl hidrogen texnologiyaları Azərbaycanla Türkiyənin enerji bazarındakı mövqeyini daha da gücləndirir, onları bu sahədə lider dövlətlərə çevirir. Bu prosesə Pakistanın da fəal şəkildə qoşulması Asiya ilə Avropanı birləşdirən enerji körpüsünün genişlənməsinə, coğrafi sərhədləri aşan əməkdaşlıq formatının yaranmasına yol açır. Nəqliyyat sahəsində həyata keçirilən layihələr isə artıq ideya mərhələsini geridə qoyaraq strateji reallığa çevrilib. Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Zəngəzur dəhlizi, Orta Dəhliz və multimodal yük daşımaları yeni logistik əlaqələrin əsası kimi çıxış edir. Bu marşrutlar yalnız fiziki hərəkət deyil - bunlar siyasi niyyətlərin və iqtisadi strategiyaların təcəssümüdür. Pakistanın bu nəqliyyat layihələrində iştirakı Azərbaycan və Türkiyənin təşəbbüsü ilə yaradılmış tranzit imkanlarının daha da dərinləşməsinə səbəb olacaq.

Ümumiyyətlə, Laçın tarixi Zirvə görüşü qardaş ölkələrin liderlərinin Prezident İlham Əliyevə olan yüksək ehtiramının bariz ifadəsi oldu. Türkiyə və Pakistan kimi nüfuzlu dövlətlərin dövlət və hökumət başçılarının Azərbaycan Prezidentinə göstərdiyi münasibət, əslində, ölkəmizin artan beynəlxalq nüfuzunun təzahürüdür. Bu münasibət təsadüfi deyil - bu, illərdir aparılan uğurlu və prinsipial xarici siyasətin, bölgədə sabitlik və inkişaf üçün atılmış ardıcıl addımların, dövlət başçısının uzaqgörən və qətiyyətli liderliyinin nəticəsidir. Bu dostluq və ehtiram səmimiyyətdə, verilən bəyanatlarda, səfərlər zamanı nümayiş etdirilən qarşılıqlı etimadda öz əksini tapır. Laçında Prezident İlham Əliyev Türkiyə və Pakistan liderləri bir daha göstərdilər ki, bu əməkdaşlıq müvəqqəti maraqlara deyil, ortaq tarixə, mənəvi bağlara və qarşılıqlı güvənə əsaslanır.

Laçın Zirvəsi bununla həm də qlobal səviyyədə yeni bir mərhələnin başlanğıcı oldu. Ankara, Bakı və İslamabad arasında formalaşan siyasi iradə, əməkdaşlığın təkcə regional deyil, beynəlxalq müstəvidə də strateji bir platformaya çevrilməsinə imkan yaradır. Energetika, ticarət, nəqliyyat və təhlükəsizlik sahələrində ortaq layihələr artıq real çərçivəyə salınır, üç ölkənin imkanları birləşərək daha böyük hədəflərə yönəlir. Bu birlik gələcək üçün yeni bir yol xəritəsi təqdim edir - Cənubi Qafqazdan başlayaraq Orta Şərq və Cənubi Asiyaya qədər uzanan geniş bir əməkdaşlıq xətti. Bu xətt təkcə iqtisadi maraqları birləşdirmir, eyni zamanda, bölgədə sülhün, sabitliyin və tərəqqinin təminatına çevrilir. Laçın şəhəri bu baxımdan simvolik məkan rolunu oynadı. Əvvəllər müharibə və dağıntılarla xatırlanan bu torpaq indi yeni əməkdaşlıqların, siyasi iradənin və strateji birliyin görüş məkanına çevrilib.

**Nurlan ABDALOV,**
**"Respublika".**